# Azərbaycanın ərazi bütövlüyü heç bir şərtlə pozula bilməz



*Azərbaycan və Rusiya çoxəsrlik dostluq, əməkdaşlıq, qarşılıqlı anlaşma telləri ilə bağlıdır. Əminəm ki, heç bir qüvvə buna təsir göstərə bilməz... Bu gün Rusiya və Azərbaycan bir-birini strateji tərəfdaşlar adlandırır. Bizim ölkələrimiz arasında qarşılıqlı əlaqələrin səviyyəsi hər hansı qonşular üçün nümunə ola bilər. Əminəm ki, münaqişənin hərbi fazası başa çatandan və siyasi nizamlamaya keçəndən sonra... Rusiya bizim regionda sabitləşmə işində aparıcı rol oynamaqda davam edəcək.*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiyanın "RİA Novosti" agentliyinə müsahibəsindən***
***Bakı, 15 oktyabr 2020-ci il***

## "Bu, Azərbaycan xalqı üçün azadlıq müharibəsidir"

**Dövlət başçımızın Rusiya Federasiyasının ən nüfuzlu kütləvi informasiya vasitələrindən olan bu agentliyə verdiyi müsahibəni oxuyanda istər-istəməz dost ölkənin Prezidenti Vladimir Putinin bir neçə gün əvvəl "Moskva. Kreml. Putin" verilişinin aparıcısı Pavel Zarubinə verdiyi eksklüziv müsahibəsində söylədiyi fikirlər yada düşür. Şimal qonşumuzun dövlət başçısı həmin verilişdə demişdir: "Biz ümid edirik ki, bu münaqişə yaxın zamanda həll ediləcək. Görünən odur ki, buna hələ çox var, amma biz tərəfləri atəşi dayandırmağa çağırırıq. Ən qısa zamanda bunu etmək lazımdır. Ermənistan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının üzvüdür. Bu müqavilə çərçivəsində bizim Ermənistan qarşısında müəyyən öhdəliklərimiz var. Amma döyüş əməliyyatları Ermənistan ərazisində aparılmır".**

Ekspertlərin fikrincə, cənab Vladimir Putin bu cümlələrlə təkcə, həmsöhbəti Pavel Zarubinə deyil, həm də gündə bir neçə dəfə Kremlə zəng edən Nikol Paşinyana da cavab verirdi. Rusiya Prezidentinin sentyabrın 27-dən etibarən Azərbaycan və Ermənistan vətəndaşlarının həlak olması faktından narahatlıq ifadə etməsi də elə onun səmimiyyətindən, Minsk qrupunun həmsədri kimi tərəfsizlik nümayiş etdirməsindən irəli gəlirdi. Cənab Putinin regionda baş verən proseslərdən danışarkən Dağlıq Qarabağ kəlməsini dilə gətirməməsi isə Nikol Paşinyan üçün ən müasir silah-sursatdan da ağır zərbə idi.

Dövlət başçımızın Rusiya kütləvi informasiya vasitələrinə verdiyi növbəti müsahibənin bəzi məqamları haqqında hazırladığımız sətirlərdə Vladimir Putinin kiçik bir müsahibəsini xatırlatmağımız təsadüfi deyil. Çünki Prezident İlham Əliyev rusiyalı jurnalistin suallarını cavablandırması zamanı da təxminən eyni məqamların dilə gətirildiyini görürük.

Azərbaycan Prezidenti Rusiya ictimaiyyətinə xatırlatdı ki, sentyabrın sonunda bizim yasavıs məntəqələrimiz yenidən artilleriya atəslərinə məruz qaldı. Elə ilk saatlarda bizdə həm dinc əhali, həm də hərbi qulluqçular arasında tələfat oldu: "Bu günə qədər bizdə dinc əhali arasında 43 nəfər həlak olan və 200-dən çox yaralı var, təmas xəttinə yaxın kəndlərdə və şəhərlərdə 2 minə yaxın ev ya tamamilə dağıdılıb, ya da zərər çəkib. Təəssüf ki, atəşkəs parametrləri razılaşdırıldıqdan sonra da Ermənistan tərəfindən artilleriya atəşləri davam edir, o cümlədən Gəncə şəhərinin vəhşicəsinə bombardman edilməsi nəticəsində 10 nəfər dinc sakin həlak olub və 40-a yaxın adam yaralanıb".

Prezident Ermənistanın havadarlarına, elə Rusiyanın özündə olan bəzi ermənipərəst qüvvələrə eşitdirdi ki, öz qonşusunun ərazilərini otuz il məhz onların dəstəyi ilə işğal altında saxlayan erməni silahlı birləşmələri bu gün artıq Azərbaycan Ordusunun qarşısında duruş gətirə bilmir: "Bu günə qədər onlarca yaşayış məntəqəsi, o cümlədən Cəbrayıl şəhəri və Cəbrayıl rayonunun kəndlərinin çox hissəsi, Füzuli rayonunun kəndlərinin əksəriyyəti, strateji əhəmiyyətli Suqovuşan qəsəbəsi işğaldan azad edilib. Biz işğalçıları Murovdağ silsiləsindəki strateji yüksəkliklərdən çıxarmışıq və ölkəmizin ərazi bütövlüyünün bərpası üzrə uğurlu əməliyyatı davam etdiririk".

Məlum olduğu kimi, Nikol Paşinyandan əvvəlki Ermənistan rəhbərləri Robert Koçaryan və Serj Sarkisyan sözün həqiqi mənasında türk – azərbaycanlı düşmənləridir və təkcə Xocalı soyqırımının törədilməsində deyil, bütövlükdə torpaqlarımızın 20 faizinin işğal edilməsində onların hər ikisinin "xidməti" olmuşdur. Ancaq Prezident İlham Əliyev Nikol Paşinyanın korafəhimliyi, diletantlığı, cahilliyi barədə danışarkən ondan əvvəlki qatil prezidentlərlə danışmağın mümkün olduğunu dilə gətirir: "Ermənistanın əvvəlki rəhbərliyi ilə iş prosesində biz mövqelərimizin razılaşdırılması istiqamətində çox fəal irəliləyirdik. Bu, çox mürəkkəb məsələ idi. Danışıqlar istənilən halda, xüsusən belə mühüm məsələdə mürəkkəb prosesdir. Buna baxmayaraq, hər iki tərəf siyasi nizamlama yolu ilə getmək arzusu nümayiş etdirirdi. Lakin təəssüf ki, Ermənistanın indiki rəhbərliyi hakimiyyətə gələndən sonra erməni tərəfi o vaxta qədər əldə edilənlərin hamısını sadəcə kənara atdı. Üstəlik, danışıqların formatını dəyişməyə, qondarma "Dağlıq Qarabağ respublikası"nın qondarma "hakimiyyət orqanları"nı danışıqlara cəlb etməyə cəhd göstərildi. Bu cəhd həm bizim tərəfimizdən, həm də ATƏT-in Minsk qrupunun həmsədrləri tərəfindən rədd edildi".

Yəni Rusiya televiziyasının çoxmilyonlu tamaşaçılarının nəzərinə çatdırıldı ki, münaqişənin indiki fazaya daxil olmasının yeganə günahkarı məhz erməni xalqını aldadaraq hakimiyyətə gəlmiş, Sorosun tapşırıqlarını yerinə yetirən, öz şəxsi maraqları naminə Qafqazı başdan-başa qana bulamağa hazır olan Nikol Paşinyandır. Erməni politoloqlar da artıq açıq şəkildə yazırlar ki, Nikol Paşinyan təkcə dövlətin başına gəlməyib, həm də xalqın boğazına keçib.

Çünki o, münaqişənin həll edilməsi üçün işlənilib hazırlanmış baza prinsiplərini ayaq altına atmaqla ATƏT-in və digər beynəlxalq təşkilatların iradəsinə zidd getmiş, beynəlxalq hüququ təhqir etmiş, dünyəvi dəyərləri tapdalamaqdan çəkinməmişdir. Haqqında söz açılan baza prinsiplərində Azərbaycanın işğal edilmiş rayonlarının mərhələli şəkildə azad olunması nəzərdə tutulur. Bu məqama toxunan Prezident deyir: "Birinci mərhələdə işğal edilmiş ərazilərin cənub-şərq hissəsindəki 5 rayon, ikinci mərhələdə Dağlıq Qarabağ ilə Ermənistan arasında yerləşən ərazilər – Laçın və Kəlbəcər rayonları işğaldan azad edilməli, bütün kommunikasiyalar, o cümlədən Ermənistan --Azərbaycan sərhədinin digər hissələrində yerləşən kommunikasiyalar açılmalı, qaçqınlar və məcburi köçkünlər əvvəlki yaşayış yerlərinə qaytarılmalıdır. Bu, azərbaycanlı köçkünlərin həm Şuşa ərazisinə, həm də keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin digər rayonlarının ərazisinə qaytarılmasını və Dağlıq Qarabağın tərəflər arasında razılaşdırılmalı olan qəti statusunun müəyyən edilməsinə dair danışıqları nəzərdə tutur. Qısa desək, Azərbaycanın həmişə hörmətlə yanaşdığı baza prinsipləri bunlardır və onları biz hazırlamışıq".

Başqa bir məqam. Otuz ilə yaxındır ki, dünyanın müxtəlif ünvanlarından "Tərəflər öz aralarında razılaşmalı və qarşılıqlı güzəştə getməlidirlər" kimi absurd, cəfəng və mənasız çağırışlar eşidirdik. Bu çağırışları edən qüvvələr anlamırdılar ki, ərazisinin 20 faizi dünyanın gözü qabağında işğal edilmiş Azərbaycanın güzət limiti də tükənib, səbri də. Ona görə də rusiyalı jurnalistin "Cənab Prezident, kompromislər barədə danışmalı olsaq, Siz hansı kompromislərə hazır olardınız?" – sualının cavabı hamı üçün maraqlı idi. Bəzi tamaşaçılar güman edirdilər ki, Azərbaycan Prezidenti bu haqsız suala cavab verməyəcək. Amma dünyanın gənc siyasətçi və politoloqlarının müəllimi kimi qəbul edilə biləcək Prezident İlham Əliyev bu sualı da səbr, təmkin, qətiyyət və prinsipiallıqla cavablandırdı.

Dövlət başçımız xatırlatdı ki, bizim mövqeyimiz həmişə çox konstruktiv, ardıcıl olub. Bu mövqe həm də BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi, Ermənistan qüvvələrinin bizim ərazilərdən dərhal, tamamilə və qeyd-şərtsiz çıxarılmasını tələb edən 4 qətnamənin yerinə yetirilməsi baxımından beynəlxalq hüququn normalarına əsaslanıb: "Bizim mövqeyimiz həmişə praqmatik yanaşmaya əsaslanıb. Düşünürəm ki, danışıqlar masası üzərində olan variantlar bunu aşkar göstərir. "Qırmızı xətlərə" gəldikdə isə biz bunu çox dəqiq bəyan etmişik və Minsk qrupunun həmsədrləri bunu yaxşı bilirlər. Azərbaycanın ərazi bütövlüyü heç bir şərtlə pozula bilməz. Azərbaycan Dağlıq Qarabağın müstəqilliyinə heç bir şərtlə razılıq verməyəcək".

Yeri gəlmişkən, dövlət başçımız bu qətiyyəti dilə gətirməklə yanaşı, həm də məxsusi olaraq qeyd edir ki, Dağlıq Qarabağda və digər şəhər və rayonlarımızda yaşayan ermənilər münaqişənin bitməsindən sonra Azərbaycan vətəndaşının malik olduğu bütün hüquqlardan yararlanacaqlar: "Azərbaycanın digər yaşayış məntəqələrində, o cümlədən çoxminlik erməni icmasının mövcud olduğu Bakıda, Rusiyada, Gürcüstanda, digər ölkələrdə ermənilərlə azərbaycanlılar bəzən bir kənddə yaşayır və işləyir, onların arasında heç bir ziddiyyət yaranmır. Buna bizdə nə üçün nail olmaq mümkün deyil? Biz bu əzmdəyik. Lakin, əlbəttə, etnik təmizləmələrin nəticələri aradan qaldırılmalıdır və bizim bütün məcburi köçkünlər öz evlərinə qayıtmalıdırlar".

***İttifaq MİRZƏBƏYLİ,***
***"Xalq qəzeti"***